UOT 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.211

# DİASPOR TƏSİSATI VƏ ONUN TƏSNİFATI

PƏRVANƏ MƏMMƏDOVA
*Gəncə Dövlət Universiteti*
*"Sosial fənlər" kafedrasının dissertantı*

*E-mail: parvana.mammadova@gdu.edu.az*
*mammedovaparvane@gmail.com*
*ORCİD İD: : 0000-0003-0330-3683*

## Giriş

Diaspor termini qədim dövrlərə aid bir məvhum olaraq Qərb sosial elmlər ədəbiyyatında geniş əhatə olunmuşdur. Diaspor konsepsiyası xüsusilə, bir vətəndən məcburi şəkildə ayrılaraq dünyanın müxtəlif yerlərinə köç edən məcburi köçkün qrupları nəzərdə tutur.

Diaspor anlayışı tarix boyunca mənaca genişlənərək bu günə qədər gəlib çıxmışdır. Bu anlayışın mənşəyinə dərindən baxıldıqda, bu terminin yunan dilindən gəldiyi məlum olur. Türk Dil Dərnəyinin lüğətinə görə, diaspor termini fransız dilindən türk dilinə "hər hansı bir millətin və ya imanın üzvlərinin vətəndən kənarda azlıq kimi yaşadığı yer və vətəndən ayrı düşən hər hansı bir xalqın nümayəndəsi" kimi tərcümə edilir.

Mənbələrə nəzər saldıqda aydın olur ki, "diaspor" termini həm yəhudilərin Fələstindən kənarda yaşadıqları yerləri, həm də antik dövrdə yunanlar tərəfindən Kiçik Asiya və Aralıq dənizi koloniyalarını ifadə etmək üçün istifadə olunmuşdur.

Fəaliyyət dairəsindən, məşğuliyyətindən və dini etiqadından asılı olmayaraq hər hansı bir etnosa aid adamların müəyyən zaman kəsiyində öz tarixi vətənlərindən kənarda məskunlaşmaları və ictimai fəaliyyəti bilavasitə diasporun formalaşması ilə nəticələnir.

Azərbaycanda "diaspor" anlayışı ilə bağlı ilkin baxışlar indi formalaşsa da, həmvətənlərimizin dünyanın müxtəlif ölkələrində məskunlama prosesi bir neçə əsr əvvəl başlamışdı. Müxtəlif ölkə və regionlarda məşkunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması və lobbi quruculuğu Azərbaycan Respublikasının başlıca istiqamətlərindən birinə çevrilmişdir. Əsası Heydər Əliyev tərəfindən qoyulan diaspor siyasətinin əsasında milli diaspor potensialının dünya miqyasında səfərbər edilərək vahid məqsədə - dövlətçiliyin məhkəmləndirilməsi və inkişafına yönəldilməsi dayanır.

**Diaspor təsisatının yaranması.** Son illərdə diaspor anlayışı qaçqınlar, immiqrantlar, qonaq işçilər, əcnəbilər, sığınacaq axtaranlar, etnik və mədəni əhali kimi müxtəlif qrupları əhatə edir. "Diaspora" termini kökü yunanca "speiro" sözü və "dia" sözönündən olub, ilkin olaraq yəhudi əhalisinə və ya dağılmanın travmatik tarixi, vətən haqqında miflər və xatirələr, ev sahibi ölkəsində özgəninkiləşdirmə, sonda geri qayıtma arzusu olan - hansı ki vətəndən qeyri-müəyyən, esxatoloji və ya utopik – davamlı dəstək ala bilər və kollektiv kimliyə istinad edilir. Britaniya ensiklopediyasına əsasən, bu ad yəhudilərin səpələndiyi ölkələrə (Fələstindən başqa), ikinci yerdə isə həmin ölkələrdə yaşayan yəhudilərə verilib. Hərfi mənada bu, "dispersion"a işarə edir və həmişə dağınıq xalqla əlaqəli olub insanlar [12,s.12].

"Diaspor" anlayışı daha geniş məna daşıyaraq sosial, mədəni, iqtisadi və siyasi sahələri də əhatə edir. M.V.Kuybışev, V.A.Kolosov, T.A.Qalkina öz tədqiqatlarında "diaspor" terminini aşağıdakı məfhumlarla bağlı şəkildə izah edirlər:

- mühacirət - insanların könüllü olaraq bir ölkədən başqa bir ölkəyə miqrasiya etməsi və ya məcburən köçürülməsi;
- koloniya - bir dövlətin vətəndaşlarının digər ölkələrdə yaşaması;
- icma - xüsusi mənada təbii və qan qohumluğu əlaqələri əsasında yaradılmış sosial təsisatın ilkin forması;
- dövlət sərhədləri ilə iki hissəyə bölünmüş xalq;
- dövlət quruluşuna malik olmayan xalq;
- səpələnmə halında yaşayaraq, qarşılarında dövlət qurmaq məqsədlərini qoymayan xalq (qaraçılar);
- tarixi vətənləri ilə tamamilə əlaqələrini itirən xalq və ya etnik qrup.

Araşdırmalar sübut edir ki, diasporun yaranması və formalaşması üçün mütləq etnik qrupun və xalqın tarixi vətənlərinin olması vacib şərtlərdən biridir [3, s. 38].

Diasporun formalaşma və mövcud olma tarixi öz başlanğıcını məhz mühacirət hallarının kütləvi xarakter almasından götürür. Bu da öz növbəsində diasporun istər-istəməz yaranıb ortaya çıxmasını zəruri və qaçılmaz edir. Özü də bu zaman xaricdə olanların, mühacirət edənlərin məhz diaspor şəklində fəaliyyət göstərib-göstərməməsinin heç bir prinsipial əhəmiyyəti olmur və mövcud vəziyyətin də-

yişməsinə ehtiyac duyulmur. Bu halda ki, onlar öz ölkələrindən mühacirət ediblər, yəni səpələniblər, dağılıblar, deməli, öz-özlüyündə aydındır ki, onlar məhz diasporun nümayəndələridir [4, s. 11].

Diasporalar öz mövqelərinə görə xüsusi yer tutur. İki fərqli ölkədə ikili kimlikləri onlara imkan verir ki, hər ikisini əlaqələndirsinlər və anlaya bilsinlər. Bu ikili xarakter "onlar gələcəyi görüb və ideyaları tərcümə edə bilərlər" kimi əhəmiyyətli bir üstünlük təmin edir. Nəhayət, Brinkerhoff iddia edir ki, kritik üstünlük onların qlobal siyasi böhranlara cavab verməleridir, belə ki, onlar ikili kimlikləri vasitəsilə daha çox hökumətləri səfərbər edə və məqsədli xalq diplomatiyası apara bilərlər. Özünəməxsus mövqelərinin tam potensialına nail olmaq üçün diasporların müxtəlif məqsədləri var. Bunlara mənşə ölkəsi ilə bağlı məsələlərdə yaşayış ölkəsinin dəstəklənməsi üçün lobbiçilik; iki ölkə arasında ticarətə yardım etmək və nəhayət, yaşayış ölkəsində yeni gələnlərə kömək etmək. Bu işlərlə məşğul olaraq diasporlar iki ölkə arasında möhkəm əlaqə yarada bilərlər [13].

Daha çox yəhudilər üçün istifadə olunan diaspor anlayışı tarixi prosesdə vətənlərini tərk edən bəzi digər icmalar üçün də istifadə edilmişdir. Bu icmaların başında afrikalılar və ermənilər durur. Hətta Afrikadan kənarda yaşayan afrikalılar üçün diaspor anlayışından istifadə etməzdən əvvəl afrikalılarla yəhudilər arasında intellektual münasibətlər və sosioloji paralellər qurulmuşdu. Lakin diaspora sözü afrikalılar üçün 1965-ci ilə qədər istifadə edilməmişdir. Mənşəyi tarixçilər tərəfindən eramızdan əvvəl 5-ci əsrə qədər götürülən erməni icması yəhudilərə ən çox bənzəyən icma kimi qəbul edilir [7, s. 44].

**Diaspor anlayışına dair müxtəlif təsnifatlar.** Diaspora ilə bağlı tədqiqatlar xeyli əvvəl başlasa da, Safran "Müasir cəmiyyətlərdə diasporlar: Vətən və qayıdış məfhumları" adlı məqaləsində bir cəmiyyətin diaspor adlandırılması üçün tələb olunan altı əsas xüsusiyyəti izah etmişdir. Bu xüsusiyyətlər hələ də diaspor anlayışı ilə bağlı müzakirələrdə əsas yer tutur: 1. Onların və ya onların törəmələrinin iki və ya daha çox bölgədə müəyyən mərkəzdən səpələnmələri; 2. Vətən haqqında ümumi yaddaş, görüntü və ya əfsanəyə malik olmaları; 3. Onlar hesab edirlər ki, ev sahibi cəmiyyət tərəfindən tam qəbul olunmurlar və böyük ölçüdə heç vaxt qəbul olunmayacaqlar və buna görə də özlərini yaşadıqları ölkədə yad və təcrid olunmuş hiss etmələri; 4. Gəldikləri vətəni öz orijinal və eyni zamanda ideal evi kimi qəbul etmək, eyni zamanda, şəraitdən asılı olaraq ya özləri, ya da sonrakı nəsillər üçün vətənə qayıtmaq istəmələri; 5. Onlar hesab edirlər ki, ana vətəni kollektiv şəkildə qorumalı və ya bərpa etməli, habelə ana vətəninin təhlükəsizliyi, inkişafı və tərəqqisi üçün çalışmaları; 6. Vətənlə əlaqələri davam etdirmək, onların etnik şüurunu və həmrəyliyini bu münasibətlər şəbəkəsi vasitəsilə müəyyən etmələri [8, s.16-17].

Fikrimizcə, diaspor anlayışının təsnifatı sistem-formalaşdırma xüsusiyyətlərinin müəyyən edilməsi ilə başlamalıdır. Buraya aşağıdakılar daxildir: 1) etnik kimlik; 2) mədəni dəyərlərin ümumiliyi; 3) etnik-mədəni kimliyin qorunması arzusu ilə ifadə olunan sosio-mədəni antiteza; 4) ümumi tarixi mənşənin varlığı ideyası (ən çox arxetip formasında). Diasporların siyasi institutlar sistemində yerini müəyyən edən siyasi təhlilin nöqteyi-nəzərincə, başqa dövlətdə yaşayan diasporlar nəinki özünü aid olduğu xalqın bir hissəsi kimi tanımalı, eyni zamanda yaşayış yeri və tarixi vətən (və ya onun simvolu) dövləti ilə münasibətlərdə öz strategiyalarının həyata keçirmələri, etnik kimliyin qorunması və inkişaf etdirilməsi məqsədi ilə fəaliyyət göstərən müəssisə və təşkilatlarının formalaşdırması vacibdir. Bir sözlə, etnik qrupdan fərqli olaraq diaspor həmişə institutlaşdırılır və nəinki etno-mədəni, eyni zamanda etnosiyasi məzmun daşıyır [11, s.18].

Q.Şeffer aşağıdakı diaspor növlərini fərqləndirir:

- “dərin tarixi köklərə malik” diasporlar (bura erməni, yəhudi və çinlilər daxildir);
- "yatmış" diasporlar (Avropa və Asiyada yaşayan amerikalılar və ABŞ-dakı skandinaviyalılar);
- "gənc" diasporlar (onlar yunanlar, polyaklar və türklər tərəfindən təşkil olunur);
- "formalaşmaqda olan", yəni formalaşmasının yalnız başlanğıc mərhələsində olmaq (onlar yenicə koreyalılar, filippinlilər, eləcə də keçmiş sovet respublikalarında yaşayan ruslar tərəfindən formalaşmağa başlayır);
- "evsizlər", yəni öz dövləti olmayanlar (bu kateqoriyaya kürdlər, fələstinlilər və romalıların diasporları daxildir);
- "etno-milli" ən geniş yayılmış diaspor növüdür. Onların xarakterik xüsusiyyəti – onlar “öz” dövlətlərinin gözəgörünməz varlığını hiss edirlər.
- "səpələnmiş" və kompakt şəkildə yaşayan diasporalar [ 10, s.13].

Məşhur tədqiqatçı Kohen Birləşmiş Ştatlarda yəhudi diasporuna bənzər 4 əsas diaspor olduğunu qeyd edir:

1. XIX əsrin ortalarında zəncilərin qul ticarət məqsədilə Amerika qitəsinə gətirilən Afrika diasporu;

2. 1848-1852-ci illərdə İngilis siyasəti nəticəsində irlandların ABŞ-a mühacirəti;

3. 1915-1916-cı illərdən sonra Amerikaya axını gücləndirən erməni diasporu;

4. 1948-ci ildə İsrail dövləti elan edildikdən sonra Amerikaya köçən ərəb diasporu [5, s. 21].

**Qloballaşan dünyada Azərbaycan diasporu.** Azərbaycanlıların xarici ölkələrə miqrasiyası prosesi və onların planetin müxtəlif bölgələrində icmalar şəklində məskunlaşması zəngin tarixə malikdir. Lakin XX əsrin sonunda milli diasporun siyasi-mədəni fenomen kimi formalaşması, təşkilatlanması bilavasitə Ümummilli Lider Heydər Əliyevin müdrik milli siyasəti ilə bağlıdır [1. s. 11].

Müstəqillik əldə etdiyi dövrdən bu günə qədər Azərbaycan dövlətinin diasporu xeyli inkişaf etmiş, müxtəlif ölkələrdə onun qurumları, cəmiyyətləri yaranmış və öz ətrafına dünyanın dörd bir yanına səpələnmiş azərbaycanlıları və Azərbaycan sevərləri cəm etmişdir. Təqribi sayı 50 milyon nəfər olan azərbaycanlıların 10 milyondan çoxu demək olar ki, dünyanın 5 qitəsində məskunlaşmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra dünya azərbaycanlılarının vahid təşkilatda birləşməsi istiqamətində cəhdlər edildi. 1997-ci ildə Amerika Birləşmiş Ştatlarında Dünya Azərbaycanlıları Konqresi təsis olundu. İyul ayının 27-də ABŞ-nin Los-Anceles şəhərində keçirilən I qurultayda 600-ə yaxın nümayəndə iştirak etmişdi. Qurultayda Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi, Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizin milli-mədəni hüquqlarının qorunması və s. məsələlər müzakirə edilmişdir. Dünya Azərbaycanlıları Konqresinin təsis olunması müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların vahid təşkilatda birləşdirilməsi istiqamətində ilk cəhd oldu. Doğrudur, bu təşkilatın təsisçiləri əsasən Cənubi Azərbaycandan köçmüş soydaşlarımız olmuşdur. Bununla belə, təşkilat dünyanın bütün ölkələrində yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması, onların vahid məqsəd ətrafında birləşdirilməsini özünün ali məqsədləri elan etmişdi [6, s.19].

Xaricdə yaşayan azərbaycanlıların öz tarixi vətənləri olan Azəbaycan Respublikası ilə əlaqələrinin inkişaf etdirilməsi, eyni zamanda dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlılar, onların cəmiyyət və birlikləri arasında əlaqələrin yaradılıb möhkəmləndirilməsi məqsədilə Dünya Azərbaycanlılarının qurultayları keçirilir. Dünya Azərbaycanlılarının I Qurultayı Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilib. II qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay 2016-cı ildə, V qurultay isə 2022-ci ilin aprelində keçirilib.

2001-ci ildə dünya azərbaycanlılarının Bakıda keçirilən ilk qurultayı bir daha sübut etdi ki, Heydər Əliyev müstəqil respublikamızı bütün dünyadakı azərbaycanlıların vətəni hesab edir və çalışır ki, ölkəmizdə və dünyanın 70-ə yaxın ölkəsində yaşayan 50 milyondan artıq soydaşımız müstəqil respublikamızı vətəndaşları olduqları ölkədə təmsil etməklə bütün dəyərlərimizi, eyni zamanda problemlərimizi Yer kürəsinin hər yerinə çatdırsınlar [9,s.134].

“Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanuna uyğun olaraq xaricdəki azərbaycanlıların Azərbaycan Respublikasının ərazisində olarkən ölkə vətəndaşları ilə bərabər hüquqlardan istifadə etmələri ümummilli ideologiya ətrafında birləşməyə aparan vətənpərvərlik, Vətənə məhəbbət, öz torpağına bağlılıq, xalqın milli keçmişinə sahib olmaq və üzvi şəkildə inkişaf etmək hüquqlarını tanımaq kimi təsəvvürə gətirilir. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət dəstəyinin artırılmasına yönəlmiş vahid strategiyanın işlənib hazırlanması kimi mühüm məsələnin həllinə hüquqi zəmin yaradan prinsipləri təsbit etmişdir [1, s.15-16].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinin 24 nömrəli 16 mart 2022-ci il tarixli Sərəncamı ilə “Dünya Azərbaycanlılarının V Qurultayının 2022-ci ilin aprelin 21-25-də Şuşa şəhərində keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilib. DİDK bununla əlaqədar ciddi hazırlıq işlərinə başlayıb. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi yaradılıb, qurultay nümayəndələrinin siyahısı müəyyənləşdirilib. Tədbirdə iştirak etmək üçün 65 ölkədən 400-ə yaxın nümayəndə seçilib [2, s.153]. Prezident İlham Əliyev tədbirdə geniş nitq söyləyib, azad Qarabağda, azad Şuşada keçirilən qurultayın əhəmiyyətini vurğulayıb, IV qurultaydan ötən müddət ərzində Azərbaycan diasporunun fəaliyyətinə qiymət verib və gələcək fəaliyyəti ilə bağlı tövsiyələrini çatdırıb [2, s.155].

Dünya Azərbaycanlılarının V qurultayı Vətən müharibəsindən sonra təşkil olunub və Zəfər qurultayı adını almışdır. Qurultayın qarşısına qoyulan əsas vəzifələrdən biri postmüharibə dövründə Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun gərgin səylə çalışması hesab olunur.

Dünya azərbaycanlılarının birliyini, həmrəyliyini daim diqqət mərkəzində saxlayan Ulu Öndər Heydər Əliyevdən sonra onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu missiyanı uğurla davam etdirir. Heydər Əliyevin sədrlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci ilin 16 dekabrında qəbul etdiyi qərarda 31 Dekabr dünya azərbaycanlılarının həmrəylik günü kimi elan edildi. 1994-cü ildən başlayaraq Heydər Əliyev ənənəvi olaraq həmin tarixdə müxtəlif ölkələrdə yaşayan soydaşlarımıza müraciətlər edir və onları təbrik edirdi. İlham Əliyev 2003-cü ilin prezident seçkilərində xalqın böyük etimadını qazanaraq dövlət başçısı seçildiyi andan etibarən diaspor məsələlərinə diqqətini artırmış, dünya azərbaycanlılarının təşkilatlanması, onların vahid ideya – Azərbaycançılıq ətrafında birləşdirilməsi siyasətini müvəffəqiyyətlə davam etdirmişdir.

**Nəticə**

Aparılan araşdırmalardan aydın oldu ki, bir çox dövlətlərin öz maraqlarını əsas tutaraq diaspordan istifadə etmələri məhz onun hərəkətdə olan qüvvə olması ilə bağlıdır. Dövlət və onun milli maraqları üçün diasporun, onun təsisatlarının əhəmiyyətini tarixi hadisələrin gedişi və bir çox dövlətlərin təcrübəsindən görmək mümkündür.

Diasporların tipologiyasına nəzər saldıqda görmək mümkündür ki, diasporalar dünyanın hər yerində metropol və ev sahibi dövlətlər arasında uzunmüddətli kommunikasiya kanalları yaratmaqla, konkret maddi dəyərlərlə yanaşı, emosional, mədəni, intellektual kapitalı da çoxalda bilir. Eyni zamanda, ən azı iki dövlətin həm sosial, həm də maliyyə investisiyalarının mənbəyi kimi diasporlar onlar arasında ikitərəfli münasibətlərdə birbaşa iştirak etməyə qadirdirlər.

Müasir Azərbaycan Respublikası dövlət müstəqilliyini möhkəmləndirməsi və dövlət quruculuğunun əsas dayaqlarının gücləndirilməsi siyasətinə əsaslanaraq, mili birliyin təmin edilməsi və dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşdirilməsi mexanizmlərinin işlənib hazırlanmasını mühüm tarixi vəzifə kimi irəli sürmüşdür

Bu gün Azərbaycan diasporu say-demoqrafik və ya kəmiyyət göstəriciləri baxımından böyük diaspora malikdir. Xalqımızın azsaylı erməni diasporu ilə mübarizədə hər zaman öndə olması üçün həyata keçirməli olduğu mühüm tədbirlərdən biri də güclü yəhudi, Çin və s. diasporlarla əlaqələr qurmaqdır. Azərbaycan diasporu çalışmalıdır ki, bundan sonra fəaliyyəti daha qabarıq şəkildə özünü büruzə versin. Ermənilər xaricdə bütün güclərini səfərbər edib dünyanın ictimai rəyini öz xeyirlərinə formalaşdırmaq üçün hər zaman hazır vəziyyətdədirlər. Düşünürəm ki, bunun qarşısını almaq üçün Azərbaycan diasporunun koordinasiya olunmuş şəkildə iş aparması, dünyanın müxtəlif ölkələrində eyni formatda, istiqamətdə hərəkət etməsi məqsədəuyğundur.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan diasporu: tarix və müasirlik. Bakı: "Turxan" NPB, 2016. - 384 s.*

*2. Azərbaycan Respublikasinin Diasporla İş Üzrə Dövlət Komitəsi 2022-ci ilin yekunlarına dair hesabat URL: https://diaspor.gov.az/az/document/hesabatlar-11*

*3. Babanlı Y.M. Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011). Bakı:Elm və təhsil nəşriyyatı, -2016. s.328.*

*4. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı:Nurlan, - 2001. s.150.*

*5. Əliyev Z. Dünya diasporları (nəzəriyyə və təcrübə), Bakı: Qismət, 2005. s.352.*

*6. Həziyeva S. A. Dünya azərbaycanlilarinin həmrəyliyi yolunda diaspor təşkilatlari (xx əsrin sonu, xxi əsrin əvvəlləri). Dərs vəsaiti. Bakı:ADPU-nəşriyyatı, 2023. s.167.*

*7. Khasanov İ. "Rusya Federasyonu Dış Politikasında 'Rus Diasporası' Olgusu". Karadeniz Araştırmaları. XVII/65: 2020. s. 43-62.*

*8. Türk diasporasinda toplumsal hafiza ve diasporik kimlik yiğit cem eskicioğlu. URL: https://acikerisim.sakarya.edu.tr/bitstream/handle/20.500.12619/98643/T10010.pdf?sequence=1*

*9. Quliycva X. Heydar Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq mənəviyyat. Bakı: Elm, 2019. s. 416.*

*10. Обидина Ю.С. Концептуализация понятия "Диаспора" в современных научных исследованиях. URL: https://cyberleninka.ru/article/n/kontseptualizatsiya-ponyatiya-diaspora-v-*

*sovremennyh-nauchnyh-issledovaniyah*

*11. Полоскова Т.В. Современные диаспоры. Внутриполитические и международные аспекты. Москва, Научная книга, 2002. с.284.*

*12. URL: https://www.researchgate.net/publication/ 242146886_From_vıctım_dıaspora_to_transborder_cıtızenshıp_diaspora_formation_and_transnational_relations_among_Kurds_in_France_and_Sweden*

*13. URL: https://www.e-ir.info/2021/09/05/my-big-fat-greek-diaspora-greek-american-diaspora-diplomacy/*

**Парвана Мамедова**
***Диссертант кафедры "Социальных наук" Гянджинского Государственного Университет / Гянджа / Азербайджан***
***e-mail: parvana.mammadova@gdu.edu.az***
***mammedovaparvane@gmail.com***
***ORCİD İD: : 0000-0003-0330-3683***

## ИНСТИТУТ ДИАСПОРЫ И ЕГО КЛАССИФИКАЦИЯ

### Резюме

Диаспоры становятся чрезвычайно важным явлением в международной политике. Диаспоры, в отличие от других иммигрантских сообществ-национальных меньшинств, более устойчивы к ассимиляции и уделяют больше внимания сохранению национальной идентичности, культурных ценностей и других элементов.

Помимо сущности и классификации института диаспоры, в статье подчеркивается деятельность азербайджанской диаспоры по распространению сильного имиджа государства в международной сфере. С момента возвращения к власти Великого лидера Гейдара Алиева в направлении организации азербайджанцев мира была проделана важная работа. Президент Ильхам Алиев, пришедший к власти после Гейдара Алиев, в процессе усиления тенденций глобализации и быстрой интеграции между народами проводит более эффективную работу в сфере диаспоростроительства.

С целью исследования темы организации диаспоры и ее классификации была предпринята попытка определить роль диаспоры в глобализированном мире и возможность влияния на политические процессы путем анализа сущности и классификации диаспоры и использования статистических показателей отечественных и зарубежных научных исследований по теме и их результатов, результатов эмпирических исследований, проведенных с диаспорами, существовавшими в разных странах в разное время, и сделав теоретическое обобщение.

Основной полученный результат состоит в том, что исследования показывают, что диаспоры каждого государства, проживающие в разных странах мира, действуя целенаправленно, объединяясь вокруг уникальных национальных идей, сохраняя свои прогрессивные традиции, оказывают большую помощь своим странам, выступают сильным фактором в установлении взаимовыгодного сотрудничества между странами своего проживания и исторической родиной.

**Ключевые слова:** *понятие диаспоры, институт диаспоры, классификация диаспоры, азербайджанская диаспора.*

**Parvana Mammadova**
***PhD student of the Department of "Social Sciences" Ganja State University/Azerbaijan/Ganja***
***e-mail: parvana.mammadova@gdu.edu.az***
***mammedovaparvane@gmail.com***
***ORCİD İD: : 0000-0003-0330-3683***

## DIASPORA INSTITUTION AND ITS CLASSIFICATION

### Summary

Diasporas are becoming an extremely important phenomenon in international politics. Diasporas, unlike other immigrant communities-national minorities, are more resistant to assimilation and pay more attention to the preservation of national identity, cultural values and other elements.

In addition to the essence and classification of the diaspora institution, the article emphasizes the activity of the Azerbaijani diaspora in spreading the strong image of the state in the international sphere. In the direction of the organization of world Azerbaijanis, important work has been done since the return to power of Great Leader Heydar Aliyev. President Ilham Aliyev, who came to power after Heydar Aliyev, is doing more effective work in the field of diaspora building in the process of strengthening the trends of globalization and rapid integration among nations.

In order to investigate the topic of diaspora organization and its classification, it was tried to determine the role of diaspora in the globalized world and the possibility of influencing political processes by using the results of empirical research conducted with diasporas in different countries at different times, statistical indicators, analyzing the nature and classification of diaspora and making a theoretical generalization.

The main scientific innovation of the research is that, at a time when a worldly process such as globalization is taking place, the activity of diasporas has become more dynamic than in the past, and it has been tried to determine the important and irreplaceable influence on the system of international relations and relations going on in the world every day, and on the system of foreign relations of the state. At the same time, the last periods of the activity of the diaspora of the Azerbaijan state, which is becoming more active day by day and increasing its influence, have been highlighted.

The main result obtained is that the researches show that the diaspora of each state living in different countries of the world, acting purposefully, uniting around unique national ideas, preserving their progressive traditions, provide great help to their countries, and act as a strong factor in establishing mutually beneficial cooperation between the countries where they live and the historical homeland.

**Keywords:** *concept of diaspora, diaspora institution, diaspora classification, Azerbaijani diaspora.*

### XÜLASƏ

Diasporalar beynəlxalq siyasətdə son dərəcə əhəmiyyətli bir fenomenə çevrilməkdədir. Diasporlar digər mühacir icmalar-milli azlıqlardan fərqli olaraq, assimilyasiyaya daha çox müqavimət göstərir və milli mənlik, mədəni dəyərlər və digər ünsürlərin qorunmasına daha çox diqqət yetirirlər.

Məqalədə diaspor təsisatının mahiyyəti və təsnifatı ilə yanaşı, Azərbaycan diasporunun dövlətin beynəlxalq sferada güclü imicinin yayılmasında göstərdiyi fəaliyyət vurğulanıbdır. Dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı dövründən başlayaraq mühüm işlər görülmüşdür. Heydər Əliyedən sonra hakimiyyətə gələn Prezident İlham Əliyev dünyada gedən qloballaşma, xalqlar arasında sürətli inteqrasiya meyillərinin güclənməsi prosesində diaspor quruculuğu sahəsində daha effektiv işlər görməkdədir.

Diaspor təsisatı və onun təsnifatı mövzusunu araşdırmaq məqsədilə mövzuya dair yerli və xarici elmi tədqiqatlar və onların nəticələrindən, müxtəlif ölkələrdə ayrı-ayrı vaxtlarda mövcud olan diasporlarla aparılan empirik tədqiqatın nəticələrindən, statistik göstəricilərdən istifadə etməklə, diasporun mahiyyətini və təsnifatını təhlil edib nəzəri ümumiləşdirmə aparılmaqla, diasporun qloballaşan dünyada rolu və siyasi proseslərə təsir imkanları müəyyən edilməyə çalışılmışdır.

Tədqiqatın əsas elmi yeniliyi ondan ibarətdir ki, hazırda qloballaşma kimi dünyəvi prosesin reallaşdığı bir vaxtda diasporların fəallığının tarixi keçmişdən fərqli olaraq daha dinamik xarakter alması və hər keçən gün dünyada gedən beynəlxalq əlaqələr və münasibətlər sisteminə, dövlətin xarici əlaqələr sisteminə mühüm, əvəzolunmaz təsiri müəyyən edilməyə çalışılmışdır. Eyni zamanda Azərbaycan dövlətinin gündən-günə aktivləşən və təsir gücü artan diasporunun fəaliyyətinin son dövrləri işıqlandırılmışdır.

Əldə olunan əsas nəticə ondan ibarətdir ki, aparılan tədqiqatlar onu göstərir ki, hər bir dövlətin dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən, özünəməxsus milli ideyalar ətrafında birləşən, mütərəqqi adət-ənənələrini qoruyub saxlayan diasporu öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi vətən arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında güclü amil kimi çıxış edirlər.

**Açar sözlər:** *Diaspor anlayışı, diaspor təsisatı, diaspor təsnifatı, Azərbaycan diasporu.*